# GlobE Şəbəkəsinin Altıncı Plenar İclası uğurla başa çatıb

22 may 2025-ci ildə Birləşmiş Millətlər Təşkilatının (BMT) Korrupsiyaya qarşı Mübarizə üzrə Qlobal Əməliyyatlar Şəbəkəsinin (GlobE Network) Altıncı Plenar İclasının peşəkar seqmenti Bakı şəhərində uğurlu nəticələrlə başa çatıb.



Tədbir korrupsiyaya qarşı beynəlxalq əməkdaşlığın gücləndirilməsi və yeni yanaşmaların tətbiqi məsələlərinə həsr olunub.

Ümumilikdə İclasa 92 ölkədən 120-dən çox dövlət qurumunun nümayəndələri qatılıb və 100-dən çox çıxış ilə 20-dən çox panel müzakirəsi olub.

Tədbir çərçivəsində, həmçinin Azərbaycan da daxil olmaqla müxtəlif ölklərin nümayəndələri arasında 100-dən artıq ikitərəfli görüş baş tutub. Müxtəlif sahələrdə əməkdaşlıq, təcrübə mübadiləsi və inkişafın təşviqi məqsədilə təşkil olunan görüşlərdə iştirakçı ölkələrin təklifləri müzakirə edilib.

Tədbirin 22 may tarixi proqramına uyğun olaraq İclasda GlobE Şəbəkəsinin Regional Ofislərinin təsis edilməsi prosedurları ilə bağlı UNODC nümayəndələri tərəfindən görülmüş işlər barədə təqdimatlar verilib. Eyni zamanda korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi mövzusunda panel müzakirəsi aparılıb. Paneldə Küveyt Dövləti və UNODC nümayəndələri çıxış edərək, beynəlxalq əməkdaşlığın əhəmiyyətini və şəbəkənin potensialını vurğulayıblar.

Sonrakı müzakirələrdə korrupsiya cinayətlərinin araşdırılmasında cinayət təqibindən kənar həllərin innovativ tətbiqi məsələsi gündəmə gəlib. Cənubi Afrika, Braziliya, Tailand və Vyetnam nümayəndələri bu mövzu ətrafında çıxış edərək, qeyri-cinayət həll yollarının tətbiqinin vacibliyini qeyd ediblər.

Bununla yanaşı, digər bir panel ictimaiyyətin məlumatlandırılması və korrupsiyaya qarşı qabaqlayıcı tədbirlərin gücləndirilməsi mövzusuna həsr olunub. Rusiya, Çin (Honq Konq Xüsusi Administrativ Bölgəsi), Haiti, Pakistan və Nepal (onlayn) nümayəndələri korrupsiyaya qarşı mübarizədə ictimaiyyətin inamını artırmağın və dəstəyi səfərbər etmənin yolları barədə geniş məlumatlar təqdim ediblər.

Aktivlərin bərpası və beynəlxalq təcrübələrin mübadiləsi mövzusu da müzakirə olunan mövzular arasında yer alıb. Braziliya, Madaqaskar, Papua Yeni Qvineya, Tailand və Uqanda nümayəndələri, həmçinin Eqmont Qrupunun Azərbaycandan olan təmsilçisi Fuad Əliyev bu sahədəki mühüm addımları və müsbət təcrübələri təqdim ediblər.

Tədbirin bağlanış mərasimində Azərbaycan Respublikasının Baş Prokurorunun müavini Nazim Rəcəbov çıxış edərək GlobE Şəbəkəsinin korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün çox vacib bir platforma olduğunu bildirib. O belə tədbirlərin dövlətlər arasında təcrübə mübadiləsini və etimadın gücləndirilməsini təmin etdiyini deyib, Azərbaycan dövlətinin bu platformada fəal iştirakını davam etdirəcəyini və qlobal mübarizənin gücləndirilməsinə öz töhfəsini verəcəyini vurğulayıb.

Azərbaycan Respublikasının Baş Prokurorunun müavini Heydər Məmmədov tədbirdə çıxış edərək ölkənin korrupsiyaya qarşı mübarizədəki iradəsini və qlobal əməkdaşlıqda əldə olunan irəliləyişləri qeyd edib. O həmçinin 2026-cı ildə Bakı şəhərinin İslam Əməkdaşlıq Təşkilatına (İƏT) Üzv Dövlətlərin Korrupsiyaya qarşı Mübarizə aparan Hüquq-mühafizə Orqanlarının Yüksək Səviyyəli Görüşünə evsahibliyi edəcəyini bildirib.

Tədbirdə çıxış edən GlobE Şəbəkəsinin İdarəetmə Komitəsinin sədri Nasser Abaalkhail (Səudiyyə Ərəbistanı), sədr müavini Boni de Moraes Soares (Braziliya) və GlobE Şəbəkəsinin koordinatoru Rozitsa Zahariyeva iştirakçılara təşəkkür edərək, korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsi üçün əməkdaşlığın davam etdiriləcəyini bildiriblər.

***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 23 may (№106).- S.5.